# 31 mart soyqırımı - bəşər tarixinin ən qanlı faciəsi

Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır.

Bakının türk-müsəlman əhalisinə qarşı soyqırımına ciddi hazırlaşan bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyan İosif Stalinə məktub yazaraq, Qafqaz "Qırmızı Ordusu"nun təşkili üçün təcili surətdə on milyon rubl göndərilməsini xahiş etmişdi. Bakıda törədilən 1918-ci ilin mart soyqırımında "Daşnaksutyun" bolşeviklərin zərbə qüvvəsini təşkil etdi. Digər tərəfdən, S.Şaumyanın təşkilatçılığı ilə Birinci Dünya müharibəsi cəbhələrindən geri çəkilən erməni əsgər və zabitləri Bakıda cəmləşdirildi. Sonradan, 1918-ci il aprelin 19-da Bakı Sovetinin yığıncağında S.Şaumyan etiraf etmişdi ki, Bakının milli tərkibi onu çox qorxudurmuş və o, erməni-daşnak alaylarının köməyindən heç cür imtina edə bilməzdi. Həqiqətən də, Bakıda azərbaycanlılara qarşı törədilən mart soyqırımın əsas təşkilatçısı və icraçısı V. Leninin Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin etdiyi S.Şaumyan idi. Onun təşkil etdiyi "Qırmızı ordu"nun tərkibi də, demək olar ki, tamamilə ermənilərdən ibarət olmuşdur.

Martın 30-da saat 16.40 radələrində erməni kilsəsinin yanında toplaşan daşnak dəstələri müsəlmanlara ilk atəş açdılar və soyqırıma başladılar. Martın 31-də səhər tezdən bolşevik-daşnak dəstələri azərbaycanlılar yaşayan "Kərpicxana", "Məmmədli" və digər Azərbaycan məhəllələrinə hücum etdilər. S. Şaumyanın xahişi və Leninin xüsusi göstərişi ilə Saritsından göndərilən 2 təyyarə havadan, hərbi gəmilər isə dənizdən şəhərin azərbaycanlılar yaşayan məhəllələrini bombalamağa başladılar. Azərbaycan xalqına divan tutmaq üçün əllərinə girəvə düşmüş daşnaklar erməni neft sənayeçilərinin barjlarında qoyulmuş toplardan Abşeronun şimalındakı kəndləri də atəşə tutdular.

Dəhşətli soyqırımına məruz qalan azərbaycanlılar martın 31-də müqaviməti dayandırdılar. Lakin erməni daşnak birləşmələri soyqırımını aprelin 2-si gecədən xeyli kənənədək davam etdirdilər. Rəsmi məlumatlara görə, mart soyqırımı nəticəsində Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirilmişdi.

Əsas qırğınlar Bakı, Şamaxı, Quba, Göyçay və ətraf bölgələrdə baş versə də, ölkənin digər əraziləri kimi Qəbələ (o vaxtki Qutqaşen qəzası) də bu prosesdən kənarda qalmayıb. Bölgədə müsəlman əhalinin üstünlük təşkil etməsi nəzərə alınsa erməni silahlı dəstələrinin və bolşevik qüvvələrinin fəaliyyətləri nəticəsində ölkənin müxtəlif yerlərində olduğu kimi burada da qorxu və qeyri-sabitlik yaranmışdı. Xüsusilə Şamaxı və ətraf bölgələrdə baş verən qırğınların təsiri Qəbələyə də yayılmışdı.

Qəbələdə Bakı, Şamaxı və Qubadakı kimi kütləvi qırğınlar qeydə alınmayıb. Lakin bəzi kəndlərdə lokal səviyyəli zorakılq və təzyiq hadisələri, hücumlar, talanlar və əhalinin köç etməsi halları olub. Yerli əhali özünü müdafiə etməyə çalışıb və bir çox yerlərdə qarşıdurmalar baş verib. Bu zaman bölgədə sabitlik tam pozulmuş, insanların həyatında ciddi təhlükə yaranmışdı. Qonşu bölgələrdə baş verən hadisələr, Şamaxı istiqamətindən gələn silahlı dəstələr, Quba hadisələrinin digər bölgələrdə də baş vermə ehtimalları gözlənilirdi. Qonşu qəzalardan qaçan əhali Qəbələnin dağ kəndlərinə sığınırdı. Kəndlərdə keşik çəkilir, silahlı dəstələr yaradılırdı. Qorxunc xəbərlər yayıldıqca insanlar kəndləri tərk edirdi.

Bölgənin Vəndam, Bum və Nic yaşayış yerləri dağətəyi və strateji yollar üzərində yerləşdiyi üçün təhlükəli zona sayılırdı. Burda əhali arasında əsasən özünümüdafiə dəstələri yaradılmışdı. Çünki hər an basqın və silahlı qarşıdurma təhlükəsi gözlənilirdi.

Nic kəndində yaşayan udilər (xristian icması) bölgədə fərqli etnik-dini tərkib yaradırdı. Bu səbəbdən kənd müəyyən mənada qarşıdurmadan kənarda qalmış, nisbi sakitlik qorunmuşdu. Bölgənin Həmzəli, Tikanlı, Hacıalılı və digər ətraf kəndlərinin əhalisi arasında təşviş, bəzi ailələrin daha təhlükəsiz yerlərə köçməsi, təsərrüfatların tərk edilməsi halları olmuş, əhali üçün ciddi sosial və psixoloji sarsıntılar yaranmışdır. Ayrı-ayrı yerlərdə talan və hücum xəbərləri qeyd olunsa da geniş qırğın faktları sistemli şəkildə sənədləşdirilməmişdir.

Qəbələ bölgəsində 1918-ci il hadisələri nəticəsində genişmiqyaslı qətliyam yox, amma ciddi təhlükə mühiti yaranmışdı. Köç və qaçqınlıq halları müşahidə edilmişdi. Odur ki, Qəbələ (Qutqaşen qəzası) 1918-ci il soyqırımı coğrafiyasına daxildir.

1918-ci il hadisələrini araşdırmaq üçün 1918-ci ilin 15 iyulunda Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Fövqəladə Təhqiqat Komissiyası yaradılmış, şahidlər dindirilmiş, hadisə yerlərinə baxış keçirilmişdir. Yüzlərlə səhifəlik istintaq materialları toplanmışdır.

1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilib və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. Erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 18 yanvar 2018-ci ildə "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncam imzalamışdır.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ səsi"**

# Kəndimizin ilk şəhidi

Hələ məktəb illərində məktəbin girişində kəndimizin ilk şəhidi yazılan bir guşə vardı.

Hər tənəffüs vaxtı, bu guşənin qarşısında dayanıb, maraqla ordakı şəkillərə baxar, yazıları oxuyardım.

Bəlkə də oxuduqlarımın mahiyyətini bu günkü qədər dərk etməmişdim o zamanlar...

İndi daha yaxşı anlayıram Qafur və digər dörd nəfər kimdir.

Qafur Şərifov 1972-ci ildə Qəbələ rayonu, Uludaş kəndində dünyaya göz açmışdı.

Orta məktəbdən sonra peşə təhsilinə yiyələnmişdir. 1992-ci ildə hərbi xidmətə çağırılmış, təlim və məşğələlərdən sonra o cəbhəyə göndərilmişdir. Xüsusi təyinatlı dəstələrin tərkibində Füzuli, Ağdərə istiqamətlərində döyüşmüşdür. Düşmənə qarşı nə qədər amansız idisə, Vətəninə də bir o qədər vurğun idi.

Qafurun anası Dursun xanım 9 övlad böyüdüb, tərbiyə etmişdi. Döyüşlər gedən vaxtda Dursun xanımın səhhəti pis idi və Qafur döyüşdə olan zaman həm də xəstə anasını düşünürdü.

Qafur 1993-cü ildə Füzuli istiqamətində gedən ağır döyüşlərə qatılır. Bir neçə erməni əsgərini məhv edir və özü də snayper gülləsinə tuş gəlir .

Qafur 5 saatlıq cərrahi müdaxiləyə baxmayaraq, gözlərini əbədi yumur .

Novruz bayramını daha çox sevən Qafur elə həmin bayram günü də canından çox sevdiyi Vətəni uğrunda əbədiyyətə qovuşur .

Şəhidin məzarı Uludaş kənd məzarlığında yerləşir. Kənd məktəbinə Qafur Şərifovun adı verilib.

**Aynur DƏRYA,**
**Qəbələ rayonu, Uludaşkəndi.**

# Peşəkar sürücü kimi



Tarixi düşmənlərimiz olan ermənilər əsrlər boyu çörəyimizi yemiş, özlərini yazıq göstərərək "saman altdan su yeritməyə" çalışmışlar. Nankor ermənilər 30 il ərzində torpaqlarımızın 20 faizini işğal altında saxlamaqla vətəndaşlarımıza qarşı cinayətlər törətmişlər. 1992-ci ilin 26 fevralında Xocalıda törədilən qanlı faciənin qatili ermənilər deyilmi?

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi ölkə rəhbərliyi ilə xalqı birləşdirdi: Ali Baş Komandanın çağırışına xalqın igid oğulları həvəslə qoşuldular.

Onların arasında Qəbələ şəhərində 14 aprel 1999-cu il tarixində zəhmətkeş bir ailədə anadan olmuş Elnur Səfa oğlu Bağırov da vardı.

Elnur 2005-ci ildə Qəbələ şəhər Pərviz Osmanov adına 2 nömrəli tam orta məktəbində birinci sinifə getmişdir. Sonra təhsilini Vahid Qəhrəmanov adına şəhər 1 nömrəli orta məktəbində davam etdirmiş, 2016-cı ildə orta təhsilə yiyələnmişdir. Elə həmin ildə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Məktəbinə daxil olmuş və kompüter operatoru ixtisasına, həmçinin Şəkidə sürücülük peşəsinə də yiyələnmişdir.

Elnur Bağırov 2018-ci ilin 13 yanvarında həqiqi hərbi xidmətə çağırılmış və 40 gün ilkin olaraq Goranboyun Ballıqaya kəndində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. Sonra xidmətini Mingəçevirdəki "N" saylı hərbi hissədə davam etdirmişdir.

2019-cu ilin iyul ayında xidmətini başa vuran Elnur doğma Qəbələyə qayıtmışdır. 2020-ci ilin 21 sentyabrında hərbi təlimlərə cəlb edilən cəsur eloğlumuz döyüşlər başlayanda cəbhə bölgəsinə yollanmışdır.

O peşəkar bir sürücü kimi öz vəzifəsini yerinə yetirmiş, atəş altında Suqovuşandan Şuşaya qədər müxtəlif istiqamətlərdə döyüş bölgələrində ağır döyüşlər altında silah-sursat daşınmasında fəal iştirak etmişdir. Fədakarlığına görə Elnur Bağırov "Vətən Müharibəsi İştirakçısı" medalı ilə təltif edilmişdir.

Vətən Müharibəsi digər Azərbaycan oğulları kimi Elnur üçün də sınaq meydanı olmuşdur. O, 9 yanvar 2021-ci il tarixində hərbi xidmətdən tərxis olunmuş, Qəbələdə doğmalarına qovuşmuşdur.

Bu gün Elnur Bakı şəhərində əmək fəaliyyəti ilə məşğuldur.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü.**

# Yazıram, izim qala...

**(Əvvəli 6-cı səhifədə).**

İlham Əliyevin müvafiq sərəncamına əsasən, 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi ilə əlaqədar "Qəbələ" qəzetində "Multikulturalizm Heydər Əliyev siyasətinin davamıdır" adlı məqalə dərc olunmuşdur. Məqalədə mövzu ilə bağlı muzeyin fəaliyyəti də öz əksini tapmışdır. İlhamə Seyidova 2016-cı ilin 19-20 may tarixlərində Azərbaycan Respublikasının Prezidenti Yanında Bilik Fondu AMEA-nın Folklor İnstitutunun Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Zaqatala Rayon İcra Hakimiyyətinin dəstəyi və təşkilatçılığı ilə keçirilən "Azərbaycan Folkloru və Milli-Mədəni Müxtəliflik" mövzusunda Beynəlxalq elmi praktik konfransın iştirakçısı olmuşdur. Onun "Multukulturalizm Heydər Əliyev siyasətinin davamıdır" adlı məqaləsi konfransın materialları arasında fərqlənmiş və məcmuədə dərc olunmuşdur. İlhamə xanım Mədəniyyət nazirliyinin mətbuat orqanlarında; "Xəzər" və "Mədəniyyət" jurnallarında, eləcə də rayonumuzun "Qəbələ səsi" ("Qəbələ") qəzetində mütəmadi olaraq maraqlı mövzularla, oxunaqlı yazılarla çıxış edir. Qəzetimizin ən fəal oxucusu, yazdığı materialların oxucular tərəfindən maraq və hörmətlə izlənildiyi müəllifdir. Məhz buna görə də, "Qəbələ səsi"nin ştatdankənar müxbiri seçilmişdir. Kollektivimizin bir üzvü, redaksiyamızın əməkdaşı kimi İlhamə xanım rayonumuzun tarixi, vətənpərvərlik, milli-mənəvi zənginliklə bağlı yazıları ilə öz imzasını rayon ziyalılarına tanıtmış bir müxbirdir.

Ona xas olan insani keyfiyyətlər ailəsindən bəhrələnmiş, atası Mehman müəllim, anası Səyyarə xanımın ailəsində özül tapmışdır. Məhz buna görə də o, gözəl övlad, bacı və ana kimi mükəmməl bir Azərbaycan xanımıdır. Ailəlidir, həyat yoldaşı Zaur Seyidovla iki övlad tərbiyə edib böyütmüşdür. Toğrul və Tural da vətənpərvər və insanlar arasında özünə hörmət qazanmağı bacaran gənclərdir. Hər ikisi kollec təhsili almış, işlədiyi müəssisələrdə öz bacarıqları ilə fərqlənirlər

**Sabahı üçün yaşayan**

İnsan var ki, bir əsrə qədər ömür yaşar, ancaq yaşadığı ömür həyatında iz buraxmaz və tez də unudular. İnsan da var ki, yaşadığı hər gün, hər ay, il sabahı üçün yaddaşlara yaşam qazandırar. İlhamə xanımın qələmə aldığı hər bir yazı materialı elimizin, vətənimizin tarixi, insanların mənəviyyatı, xeyirxahlığıdır. İnsanların həyatını, obasının, vətəninin tarixini yazdığı yazıları ilə sənədli tarixə çevirən obamızın vətənpərvər qızı hər kəsin sevimlisi, xalqımızın əsil xanım övladıdır.

**BIBIXANIM.**

# "Şəhərsalma və Memarlıq İli"

Rayon icra hakimiyyətinin təşkilatçılığı, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında Uşaq Səfirlər Məclisinin Qəbələ rayonu üzrə nümayəndələrinin təşəbbüsü ilə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində maarifləndirici tədbir keçirilmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Qəbələ nümayəndəliyinin və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin tələbələrinin iştirak etdiyi tədbirdə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, müstəqil dövlət quruculuğu və ölkəmizin hərtərəfli inkişafı istiqamətində həyata keçirdiyi tarixi xidmətlərdən geniş bəhs edilmiş, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf xəttinin bu gün uğurla davam etdirildiyi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün bölgələrində, o cümlədən işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq və abadlıq işlərinin aparıldığı qeyd edilmişdir. Diskusiya şəklində davam edən tədbirdə uşaqları maraqlandıran suallar cavablandırılmışdır.